***Azərbaycan Turizm Bürosundan bildirilmişdir ki, üzərində tamamlama işləri aparılan yeni "Qafqaz Albaniyası turizm marşrutu" yaxın vaxtlarda ictimaiyyətə təqdim ediləcək. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır.***

# Yeni turizm marşrutu – "Alban mədəniyyətinin izi"



Bildirilir ki, qədim Albaniya tarixi ilə bağlı araşdırmalar, arxeoloji nümunələr bu dövlətin Azərbaycanın tarixi keçmişinin uzun bir dövrü ilə bağlı olduğunu ortaya çıxarsa da, bu mövzuda həllini tapmayan, mübahisəli məsələlər hələ də qalmaqdadır. Mütəxəssislərin fikrincə Azərbaycan Turizm Bürosunun üzərində tamamlama işləri apardığı "Qafqaz Albaniyası turizm marşrutu" bu mübahisələrə son qoya bilər. "Alban mədəniyyətinin izi" marşrutunun yaxın vaxtlarda ictimaiyyətə təqdim ediləcəyi gözlənilir. Marşrut Qafqaz Albaniyasını araşdıran alimlərin məsləhət və tövsiyələri əsasında hazırlanır.

Turizm bürosundan verilən məlumatda deyilir ki, Alban mədəniyyəti marşrutunun Azərbaycanın 3 əsas dəhlizini – Bakı-Şəki-Zaqatala, Gəncə–Qazax və Qarabağı əhatə edəcək. Qarabağda Qafqaz Albaniyası ilə bağlı zəngin irs var. Bura məbədlər, kilsələr, həmçinin adət-ənənələr və s. daxildir. Alban mədəniyyəti islamaqədərki dövrü əhatə edir.

Qafqaz Albaniyasının ərazisinin ilk xristian icmalarının meydana gəldiyi məkanlardan hesab edilir. Bu dinin tarixində xristian məbədlərinin xüsusi yeri var. Ölkə ərazisində, o cümlədən işğaldan azad olunan torpaqlarımızda çox sayda alban məbədləri yerləşir. Təkcə Kəlbəcərdə onların sayı 35-dən çoxdur.

Əsirlikdə olan alban abidələri qismən saxtalaşdırılmış, digər tərəfdən, bütün simvolları və elementləri dəyişdirilmişdi. Əsas məqam odur ki, ərazi işğaldan azad edildi və tarixi həqiqət bərpa olundu. Prezident İlham Əliyev də qeyd edir ki, gələcəkdə ərazidəki bütün abidələr bərpa olunacaq. Çünki tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi multikultural siyasətin tərkib hissəsidir.

Hazırda Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilib. 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" alban-udi kilsəsinin rəsmi açılışı olub. 2020-ci ildə Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən daha bir tarixi kilsə – Müqəddəs Məryəm ana kilsəsi əsaslı şəkildə bərpa edilib. Xüsusən işğaldan azad edilən ərazilərimizdə olan, ermənilərin saxtalaşdırmağa çalışdığı abidələrin də ciddi bərpaya ehtiyacı var. Bunların hər biri qədim alban mədəniyyətinin ayrılmaz hissəsidir.

Mütəxəssislər hesab edirlər ki, Qafqaz Albaniyası üzrə turizm marşrutunun yaradılması, xüsusən indiki vaxtda vacib məsələdir. Bununla belə, turistləri cəlb etmək üçün infrastrukturun yaradılmasına ehtiyac var. Hələ ki, turist cəlb eləmək üçün infrastruktur lazımi səviyyədə deyil. İlk növbədə yol çəkilməli, abidələr bərpa olunmalıdır ki, turistlər bərpa olunmuş abidələri görsünlər, o əraziləri ziyarət etsinlər. Doğrudur, hazırda dövlət tərəfindən quruculuq işləri həyata keçirilir, infrastruktur yaradılır. Söz yox ki, bu proseslər başa çatandan sonra ən böyük turist axını Qarabağa olacaq. Turistlər həm Qarabağı görəcək, həm məbədlərə baş çəkəcəklər. Elə öz vətəndaşlarımız üçün də bu, böyük əhəmiyyətə malikdir.

Mütəxəssislər qədim Alban mədəniyyətinin izi ilə yaranacaq turizm marşrutunun ölkəmizin tanıdılması istiqamətində mühüm rol oynayacağını istisna etmirlər.

Alban mədəniyyəti 26 tayfanı birləşdirirdi. Bu mədəniyyətin 52 hərfdən ibarət əlifbası olub. Alban mədəniyyətinə məxsus abidələr də ölkəmizdə çoxdur. Turistlərə Azərbaycanın qədim insan məskənlərinin yeri olduğu haqda ətraflı məlumat vermək lazımdır. Bu turizm marşrutunun ideoloji əhəmiyyəti olacaq. Vaxtilə erməni kilsələri alban kilsələrini özlərinə birləşdirib və onların mədəniyyətini özününküləşdirib. Ermənilər alban abidələrinə xaç nişanlarını vurub və onu öz abidələri kimi təqdim ediblər. Ancaq tarixi mənbələr sübut edir ki, Alban etno-mədəni irsi Azərbaycan dövlətinin sələfidir. Turizm mütəxəssislərini cəlb edib bu istiqamətdə təşviqat və təbliğat işlərini elə qurmaq lazımdır ki, ermənilərin yalan danışdığı sübut olunsun. Bu istiqamətdə turizm marşrutu da böyük rol oynayacaq.

Məlumdur ki, mənfur düşmən daim Qafqazdakı abidələri öz adlarına çıxarmağa cəhd ediblər. Bu baxımdan, belə bir turizm marşrutunun olması həm yerli, həm də xarici turistlərə həqiqi tariximizin çatdırılması baxımından təbliğat vasitəsi olacaq. Bu tip marşrutlar olmalıdır ki, tarix düzgün təbliğ olunsun. Mütəxəssislər hesab edirlər ki, bu istiqamətdə turizm marşrutlarının təşkili təkcə turizm baxımından əhəmiyyət kəsb eləmir, eyni zamanda, tariximizi, mədəniyyətimizi, həmin ərazilərdə yaşayan xalqların qədimliyini, adət-ənənəsini tanıtmağa görə vacibdir:

Qafqaz Alban mədəniyyəti turizm marşrutunun yaradılması iqtisadiyyatımıza da faydalı olacaq. Sadəcə, turistləri cəlb etmək, tariximizlə bağlı məlumatlandırmaq, həqiqətlərimizə inandırmaq, Azərbaycanı tanıtmaq üçün ortaya mükəmməl və davamlı iş qoyulmalıdır. O zaman bu marşrut turistlər üçün "yüz eşitməkdənsə, bir dəfə görmək" məsəlinin layiqli isbatı, ermənilərə isə tutarlı cavab ola bilər.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***